# Çingiz Abdullayevin "Xəzinədar" romanı Türkiyə türkcəsində




Çağdaş Azərbaycan ədəbiyyatında detektiv və casus romanları ilə tanınan Çingiz Abdullayev qardaş ölkə Türkiyədə də tanınmış bir yazıçıdır. Daha əvvəl bəzi romanları Türkiyə türkcəsinə "Mavi Melekler", "Oktav Timi", "Araftan Kurtuluş", "Zehir", "Kurtlar Sofrasında" adları ilə çevrilən yazıçının, "Xəzinədar" romanı ötən ay Türkiyədə Kopernik nəşriyyatında "Mafyanın Kasası" adı ilə nəşr olunub.

"Xəzinədar"ı türkcəyə uyğunlaşdıran Gülzar Məmmədova azərbaycanlı tədqiqatçı alimdir. İbtidai, orta məktəb və universitet təhsilini Türkiyədə başa vuran Məmmədova "Türk Dili", "Türk Ədəbiyyatı", "Hece", "Köroğlu", "Bizim Külliye" kimi jurnallarda Türk və Azərbaycan ədəbiyyatı ilə bağlı müxtəlif məqalələr dərc etdirib.

Bundan başqa, tədqiqatçının "Türk Dünyası Ədəbiyyatı" (2021), Əminə Işınsu (2022), "İki Asrın Kavşağında Bir Yazar Anar Rzayev" (2023), "Sezai Karakoç Kitabı" (2023), "Nuri Pakdil"(2023) adlı kitablarında isə Anar Rzayev, Rüstəm Behrudi, Əminə Işınsu, Sezai Karakoç, Nuri Pakdil kimi yazıçıların əsərləri üzərinə incələmələri və "Ömer'in Çocukluğu" adlı bir osmanlıca kitab çalışması vardır.

Gülzar Məmmədova eyni zamanda Sermet Muhtar Alusun İstanbulla bağlı bütün yazılarını Prof. Dr. Alattin Karaca ilə birlikdə 11 kitab şəklində nəşr etdirmişdir. Muğla Sıtkı Koçman Universitetinin Türk Dili və Ədəbiyyatı kafedrasında Çingiz Abdullayev və Türk Ədəbiyyatı kriminal yazıçısı Osman Aysunun romanları üzrə ədəbiyyat doktorluğu dissertasiyasını başa vuran Gülzar Məmmədova Çingiz Abdullayevin digər romanlarını da Türkiyə türkcəsində işıq üzü görüb. O həm də Kopernik nəşriyyatında redaktor və tərcüməçi olaraq işləyir.

Çingiz Abdullayevin türkcəyə "Mafyanın Kasası" kimi tərcümə olunan "Xəzinədar" əsəri Sovet İttifaqı dövründə müəmmalı bir qətl vasitəsilə mafiya əlaqələrindən bəhs edən bir detektiv hekayəsidir. Romanda naməlum şəxslər tərəfindən qətlə yetirilən atanın maliyyəçi oğlu Anatoli Qudniçenko bu qətldən sonra atasının gizlətdiyi pulları tapır. Lakin bundan sonra onun həyatı tamamilə dəyişir. Böyük mafiya şəbəkəsi ilə qarşılaşır... Bu əsərində yazıçı mafiyanın qaranlıq münasibətlərinə işıq salır.